Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

# Azərbaycanın rəqəmsal texnologiyalar siyasəti Xankəndiyə qədər uzandı...

**Qarabağ iqtisadi rayonunun hərtərəfli inkişaf etdirilməsi dövlətin əsas hədəflərindən biridir. Qarabağda informasiya, kommunikasiya texnologiyalarından istifadə etməklə idarəetmədə, dövlət və özəl sektorun fəaliyyətində uğurlar əldə edilir. Azad ərazilərdə kommunikasiya xətlərinin yenidən qurulması, ölkəmizdəki mobil rabitə şirkətlərinin öz stansiyalarını yaratması, Bakcell, Azersell, Nar mobil operatorlarının orada işlək olması, üstəlik də rayonlara yeni beynəlxalq telefon kodlarının verilməsi prosesi gedib.**



Azərbaycan dövləti öz ərazisində suverenliyini tam bərpa etdikdən sonra bu prosesə Xankəndidə də başlanılıb. Erməni əsarətində olan Xankəndidə bütün sistem qoparılmışdı və artıq orada yeni bir həyat qurulur. Azərbaycan şəhəri Xankəndidən separatizmin izləri silinir, ora milli şəhər kimi yenə özümüzə qayıdıb.

**Xankəndiyə ilk beynəlxalq telefon kodu verilib**

Mətbuatda yayılan məlumatlara görə, artıq Xankəndi şəhərinə ilk beynəlxalq telefon kodu verilib. Bu barədə paylaşımda bildirilib ki, respublikanın digər şəhər və rayonlarından artıq 026 22 kodunu yığmaqla Xankəndi ilə əlaqə saxlamaq mümkün olacaq. Beynəlxalq danışıqlar zamanı isə "+994 26 22X XX XX" yığım formatı tətbiq olunacaq. İlk olaraq Bakıdan Xankəndiyə "026 22X XX XX" yığım formatı ilə zəng təşkil edilib. Xocalı üçün "+994 26 205 XX XX", Əsgəran üçün isə "+994 26 206 XX XX" nömrələri tanıdılıb və xidmət gələcəkdə Xankəndi ATS-dən göstəriləcək. Yeni mərkəz olaraq Xankəndi seçilib. Qısa zamanda bu iş icra edilib. Bu məlumat mətbuatda yer alıb.

**Xankəndi şəhərinin küçə və prospektlərinin toponomik xəritəsi...**

Bildirək ki, müasir informasiya texnologiyaları azad rayonların elektron xəritəsinin hazırlanmasında da mühüm rol oynayıb. Əlbəttə, hər şəhərin, hər bölgənin elektron toponomik xəritəsi olmalıdır və o xəritədə bögənin hər küçəsinin, hər məhəlləsinin adı qeyd edilməlidir.

Qarabağ torpaqları tam olaraq azad edildikdən və Azərbaycan dövləti öz torpaqları üzərində suverenliyini bərpa etdikdən sonra vaxtilə separatçıların saxtalaşdırdığı məsələlərin bərpasını həyata keçirir. Separatçıların bütün izləri hər yerdən silinir və köhnə adlar bərpa olunur, küçələrə, prospektlərə, meydanlara yeni adlar verilir. Artıq Xankəndidə küçələrə adlar verilməyə başlayıb. Yeni Xankəndi şəhərində küçə və prospekt adları yenilənib. Bu barədə bir neçə vaxt əvvəl "Xankəndi şəhəri" X səhifəsində məlumat paylaşıb və şəhərin xəritəsini yerləşdirib.

**Qarabağ Beynəlxalq Radiosu fəaliyyətə başlayıb...**

Qarabağ işğaldan azad edildikdən sonra bu regionda yeni təsisatların formalaşdırılması zərurəti yaranıb. Bu zəruri təsisatlardan biri də regionun ruhunu əks etdirən KİV-dir. Mətbuatda yayılan məlumata görə, Qarabağ Beynəlxalq Radiosu fəaliyyətə başlayır. KİV xəbər verir ki, radio 101.1 FM tezliyində yayımlanır.

Qeyd edilənə görə, Qarabağın dirçəlişinə dair ən son xəbərlər azərbaycanca, türkcə, farsca, rusca, ərəbcə, kürdcə, ləzqi, talış və ermənicə yayımlanacaq. Bəli, Qarabağ radiosu 8 dildə veriliş yayır və Qarabağ həqiqətlərini, bölgədə baş verənləri, həyata keçirilən tikinti-quruculuq işlərini dinləyicilərə çatdırır.

**Azərbaycanın rəqəmsal texnologiyalar siyasəti Xankəndini də əhatə edib**

Ekspertlər hesab edir ki, Azərbaycanda informasiya, kommunikasiya texnologiyaları çox yüksək səviyyədə inkişaf edib və bu artıq azad ərazilərdə də mövcuddur. Məlumdur ki, Azərbaycanın rəqəmsal texnologiyalar siyasəti Xankəndini də əhatə edib və bundan sonra bu texnologiyanın gücü ilə daha çox yeniliklər əldə etmək mümkün olacaq. Ekspertlər deyir ki, bu gün Qarabağ çox sürətlə bərpa edilir və Qarabağın dirçəlişində kommunikasiya, informasiya texnologiyaları vasitələri də çox böyük rol oynayır. Hazırda çox layihələrin informasiya texnologiyaları vasitəsilə həyata keçirildiyini deyən ekspertlərə görə, gələcəkdə Xankəndidə bankların qurulmasında da bu məsələ xüsusi rol oynayacaq. Bu gün orada səhiyyə sahəsində də informasiya texnologiyalarının rolu böyükdür. Gələcəkdə təhsil, qida sənayesi, kənd təsərrüfatı, inşaat, yol tikintisi və infrastruktur, nəqliyyat, turizm və mədəni irs, energetika, ekologiya sahələrində də yeni texnologiyalar əsaslı rol oynayacaq. Ekspertlər hesab edir ki, Xankəndidə rəqəmsal texnologiyaların köməyi ilə bir sıra işlərin görülməsi həm də informasiya təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Yeni separatçıların qurduğu bütün sistem məhv edilib və əvəzində dövlətimizin resurslarının yerləşdirilməsinin mühüm əhəmiyyəti var. Ekspertlər qeyd edir ki, Xankəndidə Azərbaycanın bir sıra dövlət qurumları fəaliyyət göstərir. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı verilən müvafiq tapşırıqlar çərçivəsində Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağ iqtisadi rayonunda fəaliyyətə başlayıblar. Bu fəaliyyət sahələrinin də işi, əlbəttə, informasiya, kommunikasiya texnologiyaları ilə bağlıdır. Nəzərə alsaq ki, ölkəmizdə vahid informasiya bazası, bankı formalaşıb, bu baxımdan onların da işində bu vasitələr əsas rol oynayır. İnanırıq ki, tezliklə Xankəndi Dövlət Pedaqoji İnstitutunun və orta məktəblərimizin, muzeylərin bərpası prosesi gedəcək və biz o zaman yeni texnologiyaların bu istiqamətlərdəki rolunu da görə biləcəyik.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**